# GENERAL ƏSƏDOVDAN SONRA ZƏNGİLANIN FƏXRİ CƏBRAYIL

Erməni millətçiləri 1980-ci illərin sonunda Dağlıq Qarabağı Azərbaycandan ayırmaq məqsədi ilə "Miatsum" (ermənicə "birləşmə") adlı hərəkata başladılar. Təcavüzkar hərəkatın əsas ideyası Dağlıq Qarabağı Ermənistana birləşdirmək, Ermənistan və Qarabağda yaşayan azərbaycanlıları bu ərazilərdən çıxartmaq idi.

Həmin dövrdə öz kəndlərindən qovulmuş xeyli ailələr Azərbaycanın Zəngilan və ona qonşu rayonlarında məskunlaşmışdır.

1986-cı ildə Azərbaycan KP MK-da "İnzibati orqanlar" şöbəsinin müdiri vəzifəsinə təyin olunan Məhəmməd Əsəsov Dağlıq Qarabağ və Sumqayıtda törədilən iğtişaşlarda dövlətimizi davamlı olaraq ədalətli, obyektiv müdafiə edirdi. Əmək fəaliyyəti dövründə bütün vəzifələrini məsuliyyətlə icra etdiyinə, Dağlıq Qarabağla əlaqədar prinsipiallıq göstərdiyi və təhlükəsizlik orqanlarında işlədiyini nəzərə alıb M.Əsədovu 1990-cı ilin may ayında Azərbaycan Respublikasının Daxili İşlər Naziri təyin edilir. Nazir olmasına baxmayaraq Əsədov münaqişəli ərazilərə gedir, mənfur ermənilərin törətdikləri qəddarlıqla bağlı tədbirlər görülməsi üçün SSRİ Daxili İşlər Nazirliyinə müraciət edir. Xüsusi təyinatlı milis dəstəsini yaradan nazir Xocalı aeroportunda ermənilərə nəzarəti gücləndirmək üçün DİN-nin əməkdaşlarını səfərbər edir.



General Məhəmməd Əsədov münaqişənin cərəyan etdiyi rayonlara getməklə yanaşı Çaykənd, Qarabulaq, Erkəc, Mənəşid və digər kəndlərdə erməni bazalarının dağıdılmasında şəxsən iştirak edir.

1991-ci ilin noyabrında Milli Ordunun yaradılması, ordu ilə hüquq-mühafizə orqanları arasında birgə işin təşkil edilməsi üçün M.Əsədov dövlət müşaviri təyin olunur.

1991-ci ilin noyabrın 19-da Dövlət katibi Tofiq İsmayılovun təşəbbüsü ilə Qarabağda, Xocavənddə azərbaycanlılara qarşı törədilən soyqırım siyasəti ilə, qırğınlarla əlaqədar müşavirə keçirildi və M.Əsədov da həmin müşavirədə iştirak etmək məqsədiylə Ağdama gedən vertolyota mindi. Müşavirədən sonra Xocavənddə dinc əhaliyə qarşı ermənilərin apardığı terrora görə ora uçurlar, lakin sülhməramlı nümayəndə heyəti Mİ-8 vertolyotunda Qarakənd səmasında "olmayan dağa" çırpılmış və vertolyotda olan bütün şəxslər həlak olmuşdular.

Ermənilər bu qanlı cinayətdən sonra bir sıra rayonlarla yanaşı general M. Əsədovun anadan olduğu Zəngilan rayonunu da 30 oktyabr 1993-cü ildə işğal etdilər. Zəngilanın qəsbkarlar tərəfindən işğal edilməməsi üçün həm Zəngilan, həm də digər bölgələrimizin mərd oğulları həlak oldular.



1994-cü il mayın 12-də atəşkəs imzalandıqdan sonra 2016-cı ilin aprel ayının 1-6 arasında baş verən döyüşlər bu zaman kəsiyində olan ən şiddətli döyüş idi. Azərbaycan tarixinə "Aprel döyüşü" adı ilə daxil olan döyüşlərdə Zəngilan rayonundan Orucov Müşfiq Arif oğlu, Niftalılı Rəşad Şakir oğlu, Baxşəliyev Rəşid Əliağa oğlu 94 nəfər şəhid olan oğullar sırasındadılar.

Aprel döyüşlərində Tərtər rayonun Talış kəndi ətrafındakı yüksəklikləri və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlılar kəndi və Tərtər rayonun Madagiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur.

18 sentyabr 1994-cü ildə Bakıda doğulan Müşfiq Orucov "Aprel döyüşləri"nin ən məşhur şəhididir. Onun gənclər və xalqın yaddaşında qalma səbəbi şücaəti ilə yanaşı yüksək balla Azərbaycan Texniki Universitetinə qəbul olmasıdır. Müşfiq Orucovun savadlı olub da müharibədə, xüsusən də ön cəbhədə vuruşması gənc oğlanlarımız arasında ruh yüksəkliyi yaratmışdır. Bu cür qəhrəman oğullarımızdan biri də Müşfiqin öz həmyerlisi Cəbrayıl Dövlətzadədir.

Cəbrayıl Dövlətzadə də ana tərəfdən Zəngilan rayonundan olub 2001-ci ildə Sumqayıt şəhərinin Corat qəsəbəsində dünyaya göz açıb. Keşlə qəsəbəsindəki 201 nömrəli orta məktəbi bitirmişdir. Ailədə olan 2 qardaş və bir bacını ana ilə nənəsi həm maddi, həm də mənəvi cəhətdən təmin ediblər. 39 yaşlı cavan ana Cəbrayıla nəvaziş, qayğı göstərməklə yanaşı ona güclü olmağı, çətin vəziyyətdə qalib gəlməyi, səbirli, mərd olmağı öyrətmişdir. Cəbrayıl ilə Azərbaycanın hər bir vətəndaşı yeni tanış olub. 19 yaşında general Məhəmməd Əsədovun həmyerlisi Cəbrayılın şücaətli formalaşması ananın böyük sevgisinin və əməyinin nəticəsidir.

2020-ci il bütün dünya ölkələrində fərqli bir il kimi yaddaşlara yazıldı, ancaq Azərbaycan tarixinə həm də qələbə tarixi kimi daxil oldu. 2020-ci ilin iyulun 14-də Tovuz istiqamətində baş vermiş şiddətli döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələri tərəfindən general Polad Həşimov şəhid edilmişdir. General Həşimov Məhəmməd Əsədov və İsmət Qayıbovdan sonra Qarabağ müharibəsində həlak olan üçüncü Azərbaycan generalı oldu. İyul döyüşlərində Ermənistan ordusuna sarsıdıcı zərbələr endirilməsinə baxmayaraq əksəriyyət generalın öldürülməsini təhqir hesab etmiş və generalımızın qisasının alınacağı günü gözləyirdilər. Lakin bu qisas günü uzun çəkmədi, bu ilin sentyabr ayının 27-də Ermənistan dövləti yenidən təxribat törədərək atəşkəsi pozdu.

2019-cu ilin oktyabrında Goranboy rayonunda hərbi xidmətə çağırılan Cəbrayıl, sonra hərbi xidmətini Cəlilabad rayonunda davam etdirir. Mərd, qüvvətli olmaqla yanaşı nəcib keyfiyyətlərə də malik olmuşdur Cəbrayıl Dövlətzadə. Anasını incitdiyi zaman ona "ömrüm" deyib anasının könlünü alan qəhrəmanımız gənc olmasına baxmayaraq hansısa qıza ümid verib aldatmağı özünə rəva bilməmişdir.

Yapon döyüş növü cüdo ilə məşğul olan Cəbrayıl Dövlətzadə Sərhəd Qoşunlarında xidmət etsə də ərizə yazaraq könüllü ön cəbhədə başlayan döyüşlərə qatılmaq istəyir.

Müharibənin başlanğıcında şəhidlik məqamına yüksələn qəhrəmanımızın son döyüşü haqqında yoldaşları fəxrlə danışır. Belə ki, düşmənlə üz-üzə gələn igid oğlumuz döyüş yoldaşlarından geri qayıtmağı tələb edərək - "geri qayıdın, sizin ailə-övladınız var, yetim qalmasınlar", söyləyib.

Həyat çətinliklərinə qarşı anası ilə mübarizə aparan Cəbrayıl düşməndən qorxmayaraq 10-dan çox müxtəlif rütbəli şəxsi heyətlə düşmən üzərinə yeriyən yeganə əsgər idi. Düşmənlə üzbəüz qarşılaşanda erməni general və polkovniki ilə əlbəyaxa döyüşüb və onların ikisini də boğaraq öldürüb.

Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə İkinci Fəxri Xiyabanda, general Polad Həşimovun məzarının yanında dəfn olunub.

Cəbrayıl Dövlətzadə həm öz həmyerlisi general Məhəmməd Əsədovun, həm də eyni şəhərdə doğulduğu general Polad Həşimovun qisasını alaraq qısa ömrünü Azərbaycan hərb tarixinə şanlı hərflərlə yazdırdı.

*Əzizə* Ələkbərova,
*dissertant və elmi işçi.*

*Aysel* Nəsirzadə,
*gənc şairə.*